**https://doi.org/10.58225/tim.2025-4-512-520**

**M.E.Nəzərov**
***doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti***
***ORCID 0009-0003-2852-3081***
***ig_em@mail.ru***

*Məqalə redaksiyaya daxil olub 20.11.2025*
*The article was received by editorial board on 20.11.2025*
*Статья принята к печати 20.11.2025*

# AZƏRBAYCANDA İNSAN KAPITALININ FORMALAŞMASINA TƏSİR EDƏN SOSİAL-İQTİSADİ AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

*Məqalədə Azərbaycanda insan kapitalının formalaşmasına təsir edən sosial-iqtisadi amillərin qiymətləndirilməsi aparılmışdır. Araşdırmada təhsil, səhiyyə və əmək miqrasiyası kimi əsas komponentlərin insan kapitalının inkişafında oynadığı rol təhlil edilmişdir. Təhsil səviyyəsinin yüksəldilməsi, səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və sosial rifahın təmin edilməsi iqtisadi artımın mühüm amilləri kimi müəyyənləşdirilmişdir. Tədqiqatda 2002–2023-cü illər üzrə dövlət və ailə büdcəsindən insan kapitalına yönəldilən xərclərin ÜDM, neft qiymətləri, yoxsulluq səviyyəsi və adambaşına gəlir göstəriciləri ilə qarşılıqlı əlaqəsi Pearson korrelyasiya və avtokorrelyasiya metodları əsasında qiymətləndirilmişdir.*

***Açar sözlər:*** *insan kapitalı, təhsil xərcləri, səhiyyə xərcləri, dövlət siyasəti.*

## GİRİŞ

İnsan kapitalı, istehsal amillərinin daha səmərəli istifadəsini təmin edən mühüm bir faktor olaraq, əhalinin keyfiyyəti, say tərkibi, peşə bilikləri, sağlamlıq durumu və sosial əlaqələrinin vəhdətindən ibarətdir. Bu kapital növü zamanla fiziki kapitaldan ayrılaraq müstəqil bir istehsal elementi kimi formalaşmışdır. İnformasiya cəmiyyətində bilik əsas istehsal faktoru hesab olunduqca, fiziki kapital və təbii ehtiyatların əhəmiyyəti getdikcə azalır, əvəzində insan kapitalı və bilik istehsalı daha vacib mövqeyə yüksəlir.

İnsan kapitalının toplanmasına təsir göstərən başlıca amillər üç əsas sahədə cəmlənir: təhsil, səhiyyə və əmək miqrasiyası. Bu amillər insan kapitalının formalaşmasına və inkişafına birbaşa təsir edir.

## TƏHLİL

Təhsil və insan kapitalı arasında sıx əlaqə mövcuddur. Təhsil işçi qüvvəsinin ixtisaslaşmasında mühüm rol oynayan əsas amillərdəndir. Bu səbəbdən bir çox tədqiqat insan kapitalını təhlil edərkən məhz təhsili əsas götürür və bu iki anlayışı çox zaman sinonim kimi təqdim edir (Atik, 2006: s.20).

Bir ölkədə təhsil səviyyəsini müəyyən edən əsas göstəricilər arasında təhsil statistikası, ümumi təhsil səviyyəsi, maddi və fiziki resurslar, eləcə də savadlılıq dərəcəsi yer alır (Karagül, 2002: s.39). Təhsil statistikası əhalinin müxtəlif təhsil pillələri üzrə bölgüsünü əks etdirir. Təhsil səviyyəsi göstəricisi isə adətən orta təhsil müddəti ilə ölçülür. Maddi göstəricilər təhsilə ayrılan maliyyə vəsaitlərini, xüsusilə də ÜDM-də təhsil xərclərinin payını və adambaşına düşən təhsil xərcini əhatə edir. Bu göstəricilər, eyni zamanda, ölkələr arasında müqayisə aparmaq üçün əsaslı baza yaradır.

Fiziki göstəricilər dedikdə tələbə və müəllim sayı, onların qarşılıqlı nisbəti, məktəb və texniki təchizat (laboratoriyalar, kompüterlər və s.) nəzərdə tutulur. Savadlılıq səviyyəsi isə ölkənin ümumi təhsil göstəricilərini və insan kapitalı fondunun dərəcəsini qiymətləndirmək üçün istifadə edilən ən sadə, lakin əhəmiyyətli indikatorlardan biridir (Atik, 2006: s.21).

Azərbaycanda təhsil sahəsində işləyənlərin sayına gəldikdə 2019-2020-ci illərdə dövlət ali təhsil müəssisələrində professor - müəllim heyətinin say tərkibi 13578 nəfər olmuşdur (Cədvəl 1).

**Cədvəl 1**

**Dövlət ali təhsil müəssisələrində professor-müəllim heyətinin sayı (tədris ilinin əvvəlinə; min nəfər)**

| | 2018/2019 | 2019/2020 |
|---|---|---|
| Ali təhsil müəssisələrində professor-müəllim heyətinin sayı (əsas heyət) - cəmi | 13477 | 13578 |
| onlardan: | | |
| elmi dərəcəsi olanlar: | | |
| elmlər doktoru | 1176 | 1107 |
| fəlsəfə doktoru | 5499 | 5519 |
| elmi adı olanlar: | | |
| Professor | 1078 | 1039 |
| Dosent | 3637 | 3878 |

***Mənbə:*** *https://www.stat.gov.az/source/education/*

Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "2022–2026-cı illərdə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı" çərçivəsində 2023–2024-cü tədris ili üçün prioritet ixtisas sahələrinə uyğun bakalavriat və magistratura səviyyələri üzrə nüfuzlu ali məktəblərin ilkin siyahısı müəyyən olunmuşdur.

Bu siyahı, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramının icrası üzrə Tədbirlər Planının uyğun bəndinə əsasən razılaşdırılmışdır. Proqramın həyata keçirilməsi zamanı nəzərə alınmışdır ki, xaricdə ayrılan təhsil yerlərinin azı 80 faizi magistratura pilləsini əhatə edəcək.

**Diaqram 1. 2022–2026-cı illərdə magistratura səviyyəsində prioritet sahələr üzrə Dövlət Proqramı**




***Mənbə:*** *https://edu.gov.az*

Müvafiq olaraq, siyahıya 15 prioritet ixtisas sahəsi üzrə dünyanın 28 ölkəsində yerləşən 186 nüfuzlu ali təhsil müəssisəsində tədris olunan 4.126 təhsil proqramı daxil edilmişdir. Bu proqramlardan 575-i bakalavriat, 3.551-i isə magistratura səviyyəsinə aiddir. Prioritet sahələrə informasiya texnologiyaları, mühəndislik, statistika və verilənlərin analizi, fundamental və tətbiqi elmlər, ictimai səhiyyə, təhsil, ətraf mühitin mühafizəsi, aviasiya və kosmos, dövlət idarəçiliyi, nəqliyyat və logistika, energetika, iqtisadiyyat, maliyyə, arxitektura və dizayn, eləcə də kənd təsərrüfatı daxildir.

Bakalavriat səviyyəsində təqdim olunan ümumilikdə 575 təhsil proqramının 33%-i fundamental və tətbiqi elmlər, 22%-i mühəndislik, 20%-i isə informasiya texnologiyaları sahələrini əhatə edir.

Magistratura səviyyəsində isə 3.551 proqram arasında ən böyük payı fundamental və tətbiqi elmlər (24%) tutur. Bundan əlavə, mühəndislik üzrə proqramlar 19%, informasiya texnologiyaları 12% və statistika ilə verilənlərin təhlili sahəsi 10% paya malikdir.

**Səhiyyə və insan kapitalı**. Sağlamlıq amili insan kapitalının mühüm komponentlərindən biri kimi Mushkin (1962), Becker (1964) və Grossman (1999) tərəfindən ön plana çəkilmişdir. Fərdin təhsil almaq və iqtisadi fəaliyyətlərdə iştirak etmək qabiliyyətinin formalaşmasında sağlamlıq əsas şərtlərdən biridir. Beləliklə, sağlam əhali cəmiyyətin insan kapitalının inkişafında həlledici rol oynayır (Atik, 2006: s.21).

Son illərdə Azərbaycan Respublikasında aparılan məqsədyönlü və uğurlu iqtisadi siyasət, əhalinin tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi və bu xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılması üçün əlverişli şərait formalaşdırmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində səhiyyə sisteminin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilmişdir.

Səhiyyənin maliyyələşdirilməsi sahəsində aparılan islahatların əsas hədəfləri aşağıdakılardır:

- səhiyyə sisteminin maliyyələşdirilməsinin müasir və dayanıqlı iqtisadi əsaslar üzərində qurulması və bu yolla əhalinin tibbi xidmətlərdən istifadəsinin genişləndirilməsi;
- dövlət büdcəsindən səhiyyə sektoruna ayrılan vəsaitlərin daha səmərəli və məqsədyönlü istifadəsi nəticəsində göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılması;
- əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşdırılması və orta ömür müddətinin uzadılması istiqamətində effektiv mexanizmlərin tətbiqi.

Son illərin statistik göstəriciləri göstərir ki, əhalinin tibbi xidmətlərə müraciət intensivliyi və göstərilən xidmətlərin sayı davamlı olaraq artır. Bu artım tendensiyası həm də icbari tibbi sığorta yığımlarında və səhiyyəyə ayrılan dövlət büdcəsi vəsaitlərində öz əksini tapır. Belə ki, 2024-cü il üçün səhiyyə xərcləri 1,87 milyard manata yüksəlib, icbari tibbi sığorta məqsədilə isə əlavə olaraq 2,8 milyard manatlıq vəsaitin ayrılması planlaşdırılıb. 2024-cü il ərzində icbari tibbi sığorta çərçivəsində 5.2 milyondan çox şəxs tibb müəssisələrinə 24.1 milyon dəfə müraciət edib. Bu o deməkdir ki, ölkə əhalisinin 54%-i icbari tibbi sığortadan yararlanıb. Göstərilən xidmət sayı isə 84.4 milyon olub. Tibbi xidmətlərin 87 %-i ambulator, 13 %-i stasionar şəraitdə göstərilib.

Hazırda ölkə vətəndaşları icbari tibbi sığorta çərçivəsində müəyyən olunmuş "Xidmətlər Zərfi"nə daxil olan təqribən 2.550 müxtəlif tibbi xidmətdən istifadə edə bilirlər. Bu xidmətlər 35 ilkin tibbi yardım xidməti, 6 təcili və təxirəsalınmaz tibbi xidmət, 508 ixtisaslaşdırılmış ambulator xidmət, 731 laboratoriya xidməti, 26 fizioterapiya proseduru, 39 invaziv radioloji xidmət və 1.205 stasionar tibbi xidməti əhatə edir.

**Xəstəlik göstəriciləri:** Azərbaycanda son illərdə aparılan səhiyyə islahatları və əhalinin tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi xəstəlik göstəricilərinə birbaşa təsir etmişdir. Xəstəlik göstəriciləri səhiyyə sisteminin fəaliyyətinin effektivliyini qiymətləndirmək və əhalinin sağlamlıq vəziyyətini təhlil etmək üçün mühüm vasitədir. Bu göstəricilər xəstəliklərin yayılma (prevalensiya) və yeni yoluxma (insidensiya) səviyyələrini əhatə edir və həm yoluxucu, həm də qeyri-yoluxucu xəstəliklər üzrə aparılır.

**Cədvəl 2**

**Xəstəlik sinifləri üzrə əhalinin xəstələnməsi**

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| | | | **Nəfər** | | | |
| **Bütün xəstəliklər** | **1 895 897** | **1 936 715** | **1 800 853** | **2 219 145** | **2 259 001** | **2 616 715** |
| onlardan: | | | | | | |
| bəzi infeksion və parazitar xəstəliklər | 119 954 | 120 031 | 168 322 | 208 019 | 171 040 | 205 790 |
| yenitörəmələr | 11 895 | 13 079 | 12 098 | 14 841 | 14 932 | 18 462 |
| qan, qanyaradıcı orqanların xəstəlikləri və immun mexanizmin | 66 190 | 69 925 | 65 012 | 63 336 | 66 826 | 77 660 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| prosesə cəlb olunması ilə gedən ayrı-ayrı pozuntular | | | | | | |
| endokrin sistemin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları | 49 566 | 49 126 | 45 106 | 51 777 | 62 577 | 75 610 |
| psixi pozuntular və davranış pozuntuları | 9 790 | 11 718 | 12 334 | 14 409 | 18 561 | 22 273 |
| sinir sistemi xəstəlikləri | 65 469 | 69 199 | 62 126 | 87 951 | 105 353 | 82 025 |
| göz və gözün əlavə aparatının xəstəlikləri | 76 952 | 80 393 | 72 471 | 103 231 | 119 936 | 119 094 |

***Mənbə:*** *https://www.stat.gov.az/source/healthcare/*

Rəsmi məlumatlara görə, 2006-cı ilin sonu etibarilə Azərbaycan Respublikasının neft ehtiyatları 7 milyard barel (təxminən 1 milyard ton) təşkil etmiş və bu, dünya ehtiyatlarının 0,6%-ni əhatə etmişdir (Effimoff, 2000). İnsan kapitalına yatırılan investisiyalar baxımından iki əsas mənbə araşdırılmışdır: dövlət büdcəsi və ailə büdcəsi, hər ikisi 2002–2016-cı illər dövrünü əhatə edir.

Büdcə xərclərini aşağıdakı dörd qrupa bölmək olar:

1. təhsilə ayrılan ümumi xərclər;
2. səhiyyəyə ayrılan ümumi xərclər;
3. elmə ayrılan xərclər;
4. incəsənət və mədəniyyət, media və idmana ayrılan xərclər.

**Qrafik 1. Son 14 ildə insan kapitalına dövlət xərcləri**




***Mənbə:*** *https://bakuresearchinstitute.org/on-human-capital-in-azerbaijan*

Şəkil 1a-da əks olunduğu kimi, son 14 il ərzində təhsilin inkişafına dövlət büdcəsindən ayrılan vəsaitlər təxminən 10 dəfə, səhiyyə sahəsinə yönəldilən maliyyə resursları isə 20 dəfə artmışdır. Həmçinin, incəsənət, mədəniyyət, media və idman sahələrinin maliyyələşdirilməsində də əhəmiyyətli artım müşahidə olunmuşdur (Chapman və digərləri, 2005). Lakin mütləq rəqəmlərdəki bu artıma baxmayaraq, insan kapitalının inkişafına yönəlmiş xərclərin dövlət büdcəsindəki nisbəti azalmağa meyl göstərmişdir. Belə ki, 2002-ci ildə bu xərclər büdcənin 29%-ni təşkil edərkən, 2015 və 2016-cı illərdə müvafiq göstəricilər 15.1% və 18.3%-ə qədər azalmışdır.

Şəkil 1b-də ailə büdcələrinin təhsil, səhiyyə, mədəniyyət və zərərli vərdişlərə yönəldilən xərcləri təsvir edilmişdir. Bu xərclərin artımı Azərbaycan cəmiyyətində ictimai şüurun formalaşması ilə yanaşı, təhsil və səhiyyə sahəsində qanunvericilikdə baş verən liberallaşma prosesləri ilə də əlaqələndirilir. Bu tendensiya dövlət və özəl sektor arasında vəsait bölgüsünün insan kapitalının inkişafına olan təsirini göstərir.

Dünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, 2013-cü ildə Azərbaycanda səhiyyə sahəsinə özəl xərclər adambaşına 758 beynəlxalq dollar təşkil etmişdir. Bu rəqəm, Şəkil 1b-də göstərilən ailə büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərdən ən azı üç dəfə çoxdur. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Dünya Səhiyyə Təşkilatının birgə hesabatlarında da ailə büdcəsindən edilən rəsmi və qeyri-rəsmi ödənişlər arasındakı bu fərqlər açıq şəkildə qeyd olunur (Health expenditure, World Bank Data, 2013).

Şəkil 2-dən də görünür ki, dövlət büdcəsindən insan kapitalının formalaşmasına yönəldilən vəsaitlərin payı ailə büdcəsindən bu sahəyə ayrılan vəsaitlərlə müqayisədə xeyli yüksəkdir. Tədqiq olunan dövrdə dövlət büdcəsindən insan kapitalının inkişafına ayrılan pay 90%-dən 96%-ə qədər dəyişmişdir.

**Qrafik 2. Dövlət büdcəsindən insan kapitalının formalaşmasına yönəldilmiş xərclər**




**Qrafik 3. Ümumi insan kapitalı xərclərinin ÜDM, ÜDM/neft qiyməti, yoxsulluq səviyyəsi və hər kapitala düşən illik gəlirlə müqayisəsi**




***Mənbə:*** *https://www.stat.gov.az/news/index.php*

Azərbaycan üzrə dövlət və ailə büdcələrinin insan kapitalının formalaşması və inkişafına yönəldilən ümumi xərclərinin bəzi makroiqtisadi göstəricilərlə qarşılıqlı təsirinin təhlili maraqlı nəticələr ortaya qoyur. Şəkil 3-də göstərildiyi kimi, insan kapitalına ayrılan ümumi xərclərin ÜDM, ÜDM/neftin qiyməti, yoxsulluq səviyyəsi və adambaşına illik gəlir kimi göstəricilərlə əlaqəsi əks olunmuşdur.

Son 14 il ərzində ölkənin ÜDM-i təxminən 10 dəfə artmışdır, lakin 2014-cü ildən sonra neft qiymətlərinin düşməsi səbəbindən ÜDM-də azalma qeydə alınmışdır. Bu dövrdə yoxsulluq səviyyəsi isə təxminən 10 dəfə azalmışdır. Həmçinin, adambaşına gəlirlər və insan kapitalına çəkilən xərclər müvafiq olaraq 8 və 11 dəfə artmışdır. Məsələn, 2003-cü ildə ölkə əhalisinin 49%-i milli yoxsulluq səviyyəsinin altında yaşadığı halda, 2016-cı ildə bu göstərici 5.3%-ə qədər azalmışdır (milli statistik məlumatlar). Bu inkişaf büdcə gəlirlərindən formalaşan və insan kapitalının inkişafına yönələn xərclərin yaratdığı əlavə gəlirlərin nəticəsi kimi qiymətləndirilir.

**Cədvəl 3**

**İnsan kapitalı xərcləri ilə makroiqtisadi göstəricilər arasında əlaqənin Pearson əmsalı (r)**

| **İnsan kapitalı üçün xərclər** | **ÜDM (mln ABŞ dolları)** | **ÜDM/neftin qiyməti (mln ABŞ dolları)** | **İllik adambaşına düşən gəlir (ABŞ dolları)** | **Ölkədə yoxsulluq səviyyəsindən aşağı olan əhalinin payı, (%)** |
|---|---|---|---|---|
| Dövlət büdcəsinin xərcləri, milyon ABŞ dolları | 0.9 | 0.81 | 0.95 | -0.8 |
| Ailə büdcəsi xərcləri, milyon ABŞ dolları | 0.995 | 0.83 | 0.995 | -0.92 |

***Mənbə:*** *OECD (2023).* Education at a Glance: OECD Indicators

Qrafik 3-də göstərildiyi kimi, ÜDM insan kapitalına çəkilən xərclərdən təxminən 4 dəfə çoxdur ki, bu da ölkənin mövcud inkişaf modelini davam etdirmə potensialını ifadə edir. Cədvəl 8-də isə dövlət və ailə büdcəsindən insan kapitalına ayrılan xərclərlə ÜDM arasında yüksək korrelyasiya (müvafiq olaraq r = 0.995 və r = 0.9) müəyyən edilmişdir. Bu güclü əlaqə və insan kapitalının ümumi faktor məhsuldarlığına dolayı təsiri Fleisher və həmkarlarının (2010) araşdırmasında da qeyd edilmişdir.

Digər tərəfdən, ÜDM/neftin qiyməti göstəricisi insan kapitalına çəkilən xərclərdən aşağı səviyyədədir. Ancaq ÜDM/neftin qiyməti ilə insan kapitalı xərcləri arasında da güclü korrelyasiya (r = 0.83) mövcuddur ki, bu da Azərbaycanın iqtisadiyyatının neft ehtiyatlarından asılı olduğunu göstərir.

Cədvəl 8 həmçinin dövlət və ailə büdcəsindən insan kapitalına ayrılan ümumi xərclərlə əhalinin gəlirləri arasında yüksək asılılıq olduğunu ortaya qoyur (r = 0.99). Bu nəticə təəccüblü deyil, çünki son illərdə təhsil və səhiyyə kimi insan kapitalının əsas sahələrinə investisiyalar artmışdır. Cədvəl 1-dən görünür ki, insan kapitalına çəkilən ümumi xərclərlə ailə gəlirləri arasında da yüksək korrelyasiya (r = 0.95) mövcuddur. Buna görə də, gəlirlərin azalması insan kapitalının inkişafına ayrılan xərclərə mənfi təsir göstərə bilər.

Bu problem insan kapitalı ilə yoxsulluq səviyyəsi arasında mövcud olan əks əlaqədə də özünü göstərir. Azərbaycanda yoxsulluq səviyyəsi ilə dövlət və ailə büdcəsindən insan kapitalına yönəlmiş xərclər arasında güclü mənfi korrelyasiya (r = -0.92 və r = -0.85) müşahidə edilir. İnsan kapitalının inkişafı yoxsulluğun azaldılması ilə birbaşa bağlıdır.

Cədvəl 2-də göstərilir ki, ən güclü qarşılıqlı əlaqə 2002 və 2004-cü illərdə qeydə alınmışdır. İnsan kapitalına yatırılan investisiyaların 3-5 il sonra nəticə verməsi ilə bağlı hipotezalar dəstəklənmir. Avtokorrelyasiya analizləri göstərir ki, bu investisiyalar təsirini daha qısa müddətdə göstərir. İstisna hal kimi, 2002-ci ildə ailə büdcəsindən insan kapitalına yönələn xərclərin təsiri yalnız 2 ildən sonra müşahidə olunmuşdur.

**Cədvəl 4**

**İnsan kapitalı xərcləri və ÜDM, ÜDM/neft Qiyməti üzrə avtokorrelyasiya məlumatları**

| **İnsan kapitalına ümumi xərclər, milyon ABŞ dolları** | **ÜDM (mln ABŞ dolları)** | **ÜDM/neft qiyməti** |
|---|---|---|
| 2002 | 0.97 | 0.83 |
| 2003 | 0.98 | 0.79 |
| 2004 | 0.89 | 0.88 |
| 2005 | 0.82 | 0.86 |

| | | |
|---|---|---|
| 2006 | 0.746 | 0.78 |
| 2007 | 0.645 | 0.69 |
| 2008 | 0.578 | 0.37 |
| 2009 | 0.268 | 0.028 |

***Mənbə:** International Monetary Fund (IMF). (2023).* World Economic Outlook Database.

## NƏTİCƏ

Son illərdə Azərbaycan şirkətlərin ölkədə fəaliyyət göstərməsi üçün institusional, tənzimləyici və əməliyyat mühitini gücləndirərək investisiya mühitini yaxşılaşdırmaq üçün əhəmiyyətli islahatlar etmişdir. Bu cür islahatlar və proqramlar hökumətin sənayeni inkişaf etdirmək və ölkənin dünyada imicini yaxşılaşdırmaq səylərinin bir hissəsidir (http://www.oecd.org/eurasia, 2019)




Azərbaycan üçün İnsan Kapitalı İndeksinin dəyəri təxminən 0.64 təşkil edir ki, bu da ölkədə insan kapitalının inkişaf etdirilməsi üçün potensialın hələ də mövcud olduğunu göstərir. Son illərdə təhsil və səhiyyə sahələrində müəyyən irəliləyişlər əldə olunsa da, bu sahələrin daha da inkişaf etdirilməsi üçün əlavə islahatlara və investisiyalara ehtiyac qalır.

### *İstifadə edilmiş ədəbiyyat:*

**1.** Atik, H. (2006). Human capital and economic growth. Ankara, Turkey: Nobel Academic Publishing.

**2.** Karagül, M. (2002). Beşeri sermaye ve ekonomik kalkınma ilişkisi. Istanbul, Turkey: Beta Publishing.

**3.** Mushkin, S.J. (1962). Health as an investment. Journal of Political Economy, 70(5), 129–157. https://doi.org/10.1086/258724

**4.** Becker, G.S. (1964). Human capital: A theoretical and empirical analysis. Chicago, IL: University of Chicago Press.

**5.** Grossman, M. (1999). The human capital model of the demand for health. Cambridge, MA: National Bureau of Economic Research. https://www.nber.org/papers/w7078

**6.** Effimoff, I. (2000). Economic development and education in transition countries. Moscow, Russia: Progress Publishers.

**7.** Chapman, B., Higgins, T., & Stiglitz, J. (2005). Financing higher education: Models and policy. London, UK: Routledge.

**8.** World Bank. (2013). Health expenditure (% of GDP). https://data.worldbank.org/indicator/SH.XPD.CHEX.GD.ZS
**9.** Azerbaijan State Statistics Committee. (n.d.). Statistical indicators. Baku, Azerbaijan. https://www.stat.gov.az
**10.** Ministry of Education of Azerbaijan. (n.d.). Education indicators. Baku, Azerbaijan. https://www.edu.gov.az
**11.** Baku Research Institute. (n.d.). Analytical reports. Baku, Azerbaijan. https://bakuresearchinstitute.org

**M.E.Nazarov**
*PhD student, Azerbaijan State University of Economics*
*ORCID 0009-0003-2852-3081*

**Evaluation of socio-economic factors affecting the formation of human capital in Azerbaijan**

**Abstract**

*This article evaluates the socio-economic factors influencing the formation of human capital in Azerbaijan. The study analyzes the role of key components such as education, healthcare, and labor migration in the development of human capital. Improving the level of education, enhancing the quality of healthcare services, and ensuring social welfare have been identified as crucial drivers of economic growth. The research assesses the relationship between government and household expenditures on human capital and macroeconomic indicators - GDP, oil prices, poverty rate, and per capita income - for the period 2002–2023, using Pearson correlation and autocorrelation methods.*

***Keywords****: human capital, education expenditures, healthcare expenditures, state policy.*